**Respublika**. - 2025.- 17 yanvar. - № 10. - S. 9.

# Erməni canilərin törətdikləri bəşəri cinayətlər

**Nurlan Abdalov**

**Terrorizm, etnik təmizləmə, tarixin saxtalaşdırılması, humanitar cinayətlər və ən əsası, revanşizm hayların genetik irsini müəyyən edən başlıca xüsusiyyətdir. Əsrlər boyu qatı cinayətkarların "lider"liyi ilə idarə olunan bir xalqın ideoloji zəhərlənməsi uzun illər boyu davam edən bəşəri cinayətlərə səbəb olmuşdur. İlk növbədə, antitürk isterikası, daha sonra soydaşlarımıza qarşı törədilən soyqırımı və etnik təmizləmə siyasəti buna əyani sübutdur.**

XIX əsrin əvvəllərində Çar Rusiyasının Qafqaz siyasəti, bölgənin dini və etnik mənzərəsini köklü şəkildə dəyişdirdi. Bu siyasətin əsas icraçılarından biri olan rus diplomatı və yazıçısı Aleksandr Sergeyeviç Qriboyedovun Rusiya imperatoruna yazdığı məktubda ermənilərin gələcək niyyətlərini öncədən görməsi diqqət çəkir: "Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır". Bu məktub yalnız şəxsi fikir deyil, həm də o dövrün strateji planlarını əks etdirir. Çar Rusiyası erməni kilsəsi ilə anlaşaraq Cənubi Qafqaza ermənilərin köçürülməsini təşviq etdi və bununla da bölgənin dini-etnik tarazlığına ciddi zərbə vuruldu. Azərbaycan torpaqlarında məskunlaşan ermənilər gələcəkdə bu ərazilərə sahiblənmək üçün yeni planlar hazırlamağa başladılar. Tarixi mənbələr göstərir ki, Qriqoryan kilsəsinin fəaliyyəti nəinki dini missiya daşıyırdı, həm də siyasi məqsədlərə xidmət edirdi. SSRİ və faşist Almaniyası ilə eyni vaxtda əlaqələr saxlayan bu kilsə xristian icmasının mənəvi prinsiplərinə tamamilə zidd şəkildə davranırdı. Faşist Almaniyasında "Erməni milli şurası"nın yaradılması da bu siyasətin bariz nümunəsidir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Qərbin təşəbbüsü və baş katolikosun dəstəyi ilə erməni silahlı təşkilatları, o cümlədən "Hnçak" və "Daşnaksütyun" fəaliyyətə başladı. Bu təşkilatlar təkcə siyasi təbliğatla kifayətlənmir, həm də silah-sursatla təmin olunurdu. O dövrün mətbuatına görə, hətta "Hnçak" terror təşkilatının hədəf aldığı diplomatların və dövlət adamlarının siyahısını şəxsən baş katolikos hazırlayırdı. Erməni təşkilatlarının fəaliyyətinin ən dəhşətli nəticələrindən biri 1905-1907-ci illərdə azərbaycanlılara qarşı törədilən kütləvi qırğınlar oldu. "Qafqaz layihəsi" adı altında həyata keçirilən bu plan nəticəsində yüzlərlə yaşayış məntəqəsi dağıdıldı, minlərlə günahsız azərbaycanlı amansızcasına öldürüldü. Ermənilərin bu cinayətləri erməni kilsəsi tərəfindən təşkilati və maddi baxımdan dəstəklənirdi.

Təbliğatın növbəti mərhələsi qondarma "erməni soyqırımı" haqqında iddiaların erməni kilsəsinin təbliğatında geniş vüsət almasıdır. Bu bucaq altında erməni terrorçuları daim Azərbaycanın və Türkiyənin ictimai-siyasi xadimlərinə qarşı qanlı aksiyalar törətməyə rəvac verirdilər. Təsadüfi deyil ki, "Daşnaksütyun"un 1919-cu ildə keçirilmiş IX qurultayında "Nemesis" ("Cəza") xüsusi terror qrupunun fəaliyyətə başlaması haqqında qərar qəbul edilmişdir. "Nemesis"in siyahısına Azərbaycanın və Türkiyənin qətlə yetirilməsi nəzərdə tutulan 650 siyasi və dövlət xadiminin adı daxil edilmişdi. Bu qrupun həyata keçirdiyi terror nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimləri Nəsib bəy Yusifbəyli, Fətəli xan Xoyski, Həsən bəy Ağayev qətlə yetirilmişdir. Osmanlı hökumətinin daxili işlər naziri və daha sonra hərbi naziri olmuş Tələt Paşa 1921-ci il martın 15-də Berlində öldürülmüşdür.

XX əsrin əvvəllərində erməni faşizminin qarşısını ala bilməyən (almaq istəməyən) beynəlxalq qüvvələr fasilələrlə davam edən etnik təmizləmə prinsipinə göz yumdular. Yeri gəlmişkən, yaxın günlərdə dünya ictimaiyyəti daha bir erməni "lider"inin etirafı ilə tanış oldu. Xüsusilə, Levon Ter-Petrosyanın 31 il sonra ictimailəşən ifadələri ilə soydaşlarımızın qan yaddaşı bir daha "təzələndi". Tanınmış videobloger Albert İsakovun özünün "YouTube" kanalında Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın 1993-cü il iyulun 23-də "Yerkrapa" terror təşkilatının üzvləri ilə görüşünün videosunu yaydı. Keçmiş erməni "lider"i bildirir: "Təsəvvür edin, indi onlar Ermənistandadır. Əgər onlar Ermənistanda olsaydı, bizim dövlətimiz olmayacaqdı. Biz onda şimal-şərq rayonlarını, Göyçəni müdafiə edə bilməyəcəkdik. Azərbaycanlılar 3 rayonda çoxluq təşkil edirdilər: Bu, Vardenis (Basarkeçər), Masis (Zəngibasar) və Amasiyadır. Azərbaycanlılar Zəngəzur mahalında böyük üstünlük təşkil edirdilər. Bu problem həll edildi və bu göydən hədiyyə kimi düşmədi. Bunu biz etdik, milli hərəkat etdi, erməni ümummilli hərəkatı və onun hərbi qanadı, özünümüdafiə batalyonları, bizim "Yerkrapa" dəstəsi. Həmçinin Qarabağ. Bu gün bütün Artsax (Qarabağ - red.), o cümlədən daha bir çox torpaqlar ermənilərin əlindədir".

"Təsəvvür edin, indi onlar Ermənistandadır. Əgər onlar Ermənistanda olsaydı, bizim dövlətimiz olmayacaqdı. Biz onda şimal-şərq rayonlarını, Göyçəni müdafiə edə bilməyəcəkdik. Azərbaycanlılar 3

rayonda çoxluq təşkil edirdilər: Bu, Vardenis (Basarkeçər), Masis (Zəngibasar) və Amasiyadır. Azərbaycanlılar Zəngəzur mahalında böyük üstünlük təşkil edirdilər. Bu problem həll edildi və bu göydən hədiyyə kimi düşmədi. Bunu biz etdik, milli hərəkat etdi, erməni ümummilli hərəkatı və onun hərbi qanadı, özünümüdafiə batalyonları, bizim "Yerkrapa" dəstəsi".

Bu gün Azərbaycan xalqına və bəşəriyyətə qarşı törədilən cinayətlərdə Ermənistanın eks-prezidentləri Levon Ter-Petrosyan, Robert Köçəryan və Serj Sarkisyanın məsuliyyət daşıdığı danılmaz faktdır. Onların hər biri fərqli dövrlərdə, faşist ideologiyasına xidmət edən siyasətlər həyata keçirərək bölgənin etnik və mədəni mənzərəsinə ciddi ziyan vurub. Levon Ter-Petrosyanın rəhbərliyi dövründə azərbaycanlıların Qərbi Azərbaycandan - indiki Ermənistandan zorla qovulması baş verdi. Bu proses azərbaycanlı ailələrin öz ev-eşiklərindən məhrum edilməsinə, tarixi yurd yerlərinin boşaldılmasına səbəb oldu. Robert Köçəryan və Serj Sarkisyan isə daha da irəli gedərək, Qarabağ və ətraf rayonlarda yaşayan azərbaycanlı əhalini sistematik şəkildə doğma torpaqlarından çıxarmaq üçün hərbi cinayətlər törətdilər. Onların rəhbərliyilə həyata keçirilən planlar təkcə deportasiya ilə məhdudlaşmadı - bu planlar minlərlə azərbaycanlının soyqırımına və faciəli taleyinə yol açdı. Bu şəxslərin birbaşa iştirak etdiyi hadisələr, verilən tapşırıqlar və təşkil olunan cinayətkar əməliyyatlar beynəlxalq hüquq normalarına zidd olmaqla yanaşı, bəşəri dəyərlərə də meydan oxumaqdır.

"Azərbaycanlılar və ermənilər genetik və etnik cəhətdən bir-birinə uyğun gəlmirlər. Ona görə də eyni ərazidə yaşaya bilməzlər".

Ölkədə genişlənən etirazlar fonunda Köçəryan 1997-ci ilin martında Ermənistanın ovaxtkı prezidenti Levon Ter-Petrosyan tərəfindən ölkənin baş naziri təyin edildi. 1998-ci ildə Levon Ter-Petrosyan məcburən istefaya göndərildikdən sonra o, prezidentin səlahiyyətlərini icra etdi. Həmin il etiraz dalğası fonunda hakimiyyətdəki resursların hesabına martın 30-da prezident seçilərək Xocalı qatili Köçəryan Qarabağdakı erməni separatçı dəstələrinə və xaricdəki erməni diasporunun maliyyə dəstəyi ilə formalaşan silahlı qruplaşmalara başçılıq edib. Onun rəhbərliyi altında azərbaycanlılara qarşı sistematik qırğınlar həyata keçirilib, bu isə xalqımızın yaddaşında silinməz bir iz buraxıb. Xocalı faciəsi Köçəryanın cinayətkar fəaliyyətlərinin ən dəhşətli nümunələrindən biridir. Həmin gecə yüzlərlə insan, o cümlədən qadınlar, uşaqlar və yaşlılar amansızcasına qətlə yetirildi. Bu soyqırımı, yalnız Azərbaycan tarixində deyil, dünya ictimaiyyətinin də vicdanında ağır bir yara kimi qalmaqdadır. Robert Köçəryanın törətdiyi cinayətlər, beynəlxalq hüquq və insan haqları prinsiplərinə qarşıdır. Onun əməlləri yalnız bir xalqa deyil, bütün bəşəriyyətə qarşı cinayət olaraq qiymətləndirilməli və dünya ictimaiyyəti tərəfindən qətiyyətlə qınanmalıdır. Bu ədalət çağırışı təkcə keçmişin dərslərindən nəticə çıxarmaq deyil, həm də gələcəkdə belə faciələrin qarşısını almaq üçün vacibdir. Xüsusi vurğulanmalıdır ki, o 2003-cü il yanvarın 16-da Moskvadakı çıxışı zamanı Qarabağda baş verən etnik təmizləmə siyasəti haqqında belə demişdi: "Azərbaycanlılar və ermənilər genetik və etnik cəhətdən bir-birinə uyğun gəlmirlər. Ona görə də eyni ərazidə yaşaya bilməzlər". Bu ifadə bir növ bəşəri soyqırımı və cinayət əməllərini törədən ermənilərin əlində bayraq kimi idi.

"Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır".

**Aleksandr Sergeyeviç Qriboyedov,**
**rus diplomatı və yazıçısı.**

Əfsuslar olsun ki, terrorçu mahiyyət və xislət illər keçsə də dəyişmədi. Bu səfər Ermənistan hakimiyyətində simalar yeni olsa da, eyni üslub və xətt davam etdirildi. Bu dəfə səhnədə "lider" obrazında Serj Sarkisyan var idi. 1992-ci ilin fevralında Xocalıda baş verən faciədə - bəşər tarixinin ən qanlı soyqırımlarından birində iştirak edib. O, Xocalı faciəsini törədən silahlı qüvvələrə rəhbərlik etmiş, bu qüvvələri təşkilatlandıraraq yüzlərlə günahsız insanın ölüm əmrini vermiş və soyqırımın birbaşa iştirakçısı olmuşdur. Bu səbəbdən Serj Sarkisyanın adı, törədilən insanlıq cinayətləri ilə bağlı məsələ Avropa İnsan Haqları Məhkəməsində müzakirəyə çıxarılmışdır. Sarkisyanın Xocalı soyqırımı ilə bağlı verdiyi açıqlama isə onun cinayətlərini etiraf etməsi kimi dəyərləndirilir. İngilis jurnalist Tomas de Vaalın "Xocalı soyqırımı haqqında nə düşünürsünüz?" sualına Sarkisyanın verdiyi cavab bütün dünya ictimaiyyətini sarsıtdı: "Xocalıya qədər Azərbaycan tərəfi elə bilirdi ki, bizim ilə zarafat eləmək olar. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyil. Biz bu anlayışa (stereotipə) son qoyduq. Baş verən hadisə də bu idi". Bu sözlər, Serj Sarkisyanın soyqırımda birbaşa iştirakını, həm də törədilən faciənin məqsədli şəkildə həyata keçirildiyini təsdiq edir. Həmin açıqlama Sarkisyanın mülki əhalini hədəfə alan cinayətlərdə məqsədli bir planın olduğunu açıq şəkildə göstərir. Serj Sarkisyanın törətdiyi cinayətlərə beynəlxalq hüquq müstəvisində layiqli qiymət verilməlidir. Bu, təkcə keçmişin ədalətini bərpa etmək deyil,

həm də gələcəkdə belə faciələrin qarşısını almaq üçün vacib bir addım olmalıdır. Dünya ictimaiyyəti bu cür insanlıq əleyhinə cinayətlərə göz yummamalıdır.

"Xocalıya qədər Azərbaycan tərəfi elə bilirdi ki, bizim ilə zarafat eləmək olar. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyil. Biz bu anlayışa (stereotipə) son qoyduq. Baş verən hadisə də bu idi".

İndiki dövrdədə rəsmi İrəvandakı simaların fərqliliyi müşahidə olunsa da, xislətdə heç bir dəyişkənlik yoxdur. Vaxt irəlilədikcə, məhz Ermənistan üçün çənbər daralır, törədilən əməllərə cavab vermək vaxtı yaxınlaşırdı. Belə bir zamanda hakimiyyətə Nikol Paşinyan gəldi (gətirildi). Məhz o da sələflərinin xislət daşıyıcısı olduğunu çox keçmədən büruzə verdi.

Prezident İlham Əliyev 2020-ci il oktyabrın 2-də "Əl-Cəzirə" televiziya kanalına verdiyi müsahibədə bildirdi ki, Minsk qrupunun həmsədrləri Ermənistan hakimiyyətinin yeni olduğunu, ola bilsin emosiyalarına və sözlərinə tam hakim ola bilmədiyi üçün məndən xahiş edərək deyirdilər ki, Azərbaycan daha çox anlayış göstərsin: "Mən dedim ki, yaxşı, gəlin cəhd edək. Biz sülh yolunu tapmaq istəyirik, ona görə də biz uzun illərdir ki, gözləyirdik və bu yayındırıcı yanaşma olmasaydı, yəqin danışıqlar davam edəcəkdi. Bu bəyanatdan sonra mənim Ermənistanın baş naziri ilə görüşüm oldu. Lakin görüşlər tamamilə mənasız idi, rəsmi xarakter daşıyırdı. O, mənə əraziləri geri qaytarmayacaqlarını deyirdi...". Göründüyü kimi, əvvəllər əzəli yurdumuzda sərxoş halda rəqslər edən, "Qarabağ Ermənistandır" kimi cəfəngiyyatın sahibi olan Nikol Paşinyan Petrosyan, Köçəryan və Sarkisyandan geri qalmır.

İstənilən halda, qüdrətli Azərbaycan dövləti 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror tədbirləri ilə ədaləti bərpa etdi. Uzun illər göz yumulan bu bəşəri cinayətin cəzası döyüş meydanında verildi. Diplomatik masada Ermənistan kapitulyasiya aktına imza atmalı oldu. Xocalı, Meşəli, Ballıqaya, Qaradağlı və bir çox faciələrin qisası alındı.